

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qiblәgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 105(23.992)

8 iyun 2022-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## “Sabahın tədqiqatçıları-2022” layihəsinə yekun vurulub



***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin və Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin birgə təşkilatçılığı ilə Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində “Sabahın tədqiqatçıları-2022” layihəsinin yekunu ilə bağlı tədbir keçirilib.***

Tədbirdə təhsil naziri Rəhman Məmmədov muxtar respublikada aparılan məqsədyönlü təhsil siyasətindən danışıb.

Vurğulanıb ki, nazirlik tərəfindən şagirdlərin istedad və bacarıqlarının aşkar edilməsinə və inkişafına, eləcə də şagirdlərin elmi axtarışlara sövq edilməsinə yönəlmiş bir sıra layihələr tətbiq olunur. Onlardan biri də “Sabahın tədqiqatçıları” layihəsidir. 2019-2020-ci tədris ilindən tətbiq edilən layihə çərçivəsində ötən dövr ərzində Naxçıvan şəhərində yerləşən ümumtəhsil məktəblərindən xüsusi istedad və qabiliyyəti ilə fərqlənən şagirdlər AMEA Naxçıvan Bölməsinin alimləri tərəfindən elmi himayəyə götürülüb. Şagirdlərlə birgə laboratoriyalarda tədqiqatlar aparılıb, məruzə, tezis, referat və hesabatlar hazırlanıb. Ötən dövr ərzində tədqiqatların nəticələrindən ibarət sərgilər təşkil olunub, onlarla müsabiqə və yarışlar, elmi-təcrübi konfrans və seminarlar keçirilib. Cari tədris ilində davam etdirilən layihədə 37 şagird 24 alimin rəhbərliyi altında tədqiqatlar aparıb. Ümumilikdə isə bu günədək 74 elmi rəhbərin və 132 şagirdin iştirakı ilə Naxçıvan Muxtar Respublikası üçün əhəmiyyətli olan 81 layihə üzrə tədqiqatlar aparılıb.

Təhsil naziri “Sabahın tədqiqatçıları” layihəsinin iştirakçılarını tədris ili ərzində qazandıqları uğurlara görə təbrik edib.

Tədbirdə çıxış edən AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev “Sabahın tədqiqatçıları” layihəsi layihə çərçivəsində xeyli sayda irəliləyişlərin qeydə alınmasından, istər məktəblilərin, istərsə də bölmə əməkdaşlarının tədqiqatlara göstərdikləri həssas yanaşmadan danışıb. Savadlı, intellektual gənc nəslin formalaşdırılmasının prioritet məsələlərdən olduğunu qeyd edən akademik İsmayıl Hacıyev bildirib ki, muxtar respublikada elm və təhsilə göstərilən hərtərəfli qayğı tədris prosesinin yaxşılaşdırılmasına, yeni-yeni layihələrin icrasına, uğurların əldə olunmasına başlıca səbəbdir. “Sabahın tədqiqatçıları” layihəsi də elmi potensialı artırmaqla yanaşı, gənc nəsildə mütəxəssislərlə işləmə bacarıqları formalaşdırır, gələcək peşə seçimlərinə müsbət təsir göstərir.

“Sabahın tədqiqatçıları” layihəsinin icraçısı, Naxçıvan Şəhər Təhsil Şöbəsinin baş məsləhətçisi Gülxanım Orucova 2021-2022-ci tədris ilində layihə çərçivəsində görülən işlər və qazanılan uğurlar barədə tədbir iştirakçılarına məlumat verib.

Qeyd olunub ki, beynəlxalq səviyyəli müsabiqələrdə şagirdlər 36 I dərəcəli diplom və medala, 1 şagird III dərəcəli diplom və medala, 3 şagird müxtəlif konfranslarda sertifikatlara layiq görülüb.

Diqqətə çatdırılıb ki, “Sabahın alimləri” layihəsində 7 şagird 4 layihə ilə iştirak edib, 3 layihə beynəlxalq qurumların mükafatlarına layiq görülüb.

Tədbirdə “Sabahın tədqiqatçıları” layihəsindən bəhs edən videoçarx izlənilib.

Sonra layihə iştirakçıları həyata keçirdikləri tədqiqat işləri barədə məlumatlar verib, təcrübələr aparıblar. Layihələr böyük maraqla qarşılanıb.

Tədbirin sonunda layihə iştirakçılarına və onların elmi rəhbərlərinə diplomlar təqdim olunub.

## Çin Xalq Respublikasından gələn mütəxəssislər Naxçıvan Texniki Peşə və Sürücülük Məktəbində təlim keçiblər

***Dünən Çin Xalq Respublikasından muxtar respublikaya gələn mütəxəssislər Naxçıvan Texniki Peşə və Sürücülük Məktəbində təlim keçiblər.***



Dünyada ekoloji problemlərin həlli istiqamətində görülən tədbirlərdən biri də elektriklə işləyən nəqliyyat vasitələrinə üstünlük verilməsidir. Muxtar respublikada da ekologiyanın qorunması istiqamətində müxtəlif tədbirlər həyata keçirilir. Sərnişindaşımada elektriklə işləyən elektrobuslardan istifadə olunur. Bu növ avtomobillərin istismarında və təmirində ixtisaslı kadrlara ehtiyac duyulur.

Cari il may ayının 13-də “Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidməti” publik hüquqi şəxsə elektrobusların təqdimatı zamanı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Təhsil Nazirliyinə sürücülük və peşə məktəblərində elektriklə işləyən avtobuslar üçün kadr təminatının diqqətdə saxlanılması, tədris proqramında dəyişiklik edilməsi ilə bağlı tapşırıq verib. Tapşırığa uyğun olaraq Təhsil Nazirliyi tərəfindən Texniki Peşə və Sürücülük Məktəbinin tədris proqramına elektriklə işləyən avtomobillərin istismarı qaydaları ilə bağlı əlavələr edilib. Bu tədbirlərin davamı olaraq isə Çin Xalq Respublikasından gələn mütəxəssislər məktəbin müəllimləri və elektrobus sürücüləri üçün təlim keçiblər.

Xarici mütəxəssislər təlim iştirakçılarına elektriklə işləyən avtomobillərin və elektrobusların konstruksiyası, mühərrikin işləmə qaydası, ehtiyat hissələri haqqında geniş məlumatlar veriblər. Elektriklə işləyən avtomobillərdə gələcəkdə yarana biləcək texniki nasazlıqların aradan qaldırılması üçün görüləcək tədbirlər də iştirakçıların diqqətinə çatdırılıb, onları maraqlandıran suallar cavablandırılıb.

**Naxçıvan Muxtar Respublikası**
**Təhsil Nazirliyinin mətbuat xidməti**

***Dünən İsveçrə İnkişaf və Əməkdaşlıq Agentliyinin maliyyələşdirdiyi, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Azərbaycan Mikromaliyyə Assosiasiyası tərəfindən icra olunan “Ailə rifahı naminə qadınları maarifləndirək” layihəsi çərçivəsində “Gələcəyini planlaşdır!” adlı təlimə başlanılıb.***

## “Gələcəyini planlaşdır!” təliminə başlanılıb



Tədbirdə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova muxtar respublikada ardıcıl olaraq həyata keçirilən dövlət qadın siyasəti haqqında ətraflı məlumat verib. Müvafiq sahədə qanunvericilik aktlarının, dövlət proqramlarının qəbul olunmasından bəhs edən komitə sədri qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın icrasına uyğun olaraq komitə tərəfindən müvafiq tədbirlər görülür, hər il onlarla qadın sosialyönümlü layihələrə cəlb edilir, özünüməşğulluqları təmin olunur, istedadlı qadınların əl işlərinin sərgisi və satışı həyata keçirilir.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən qadınlarla bağlı artıq dördüncü layihənin icrasına başlanılıb. Ötən müddət ərzində keçirilən layihələrdə 128 qadına maddi dəstək göstərilmiş, həmin qadınlar öz təsərrüfatlarını fəaliyyət istiqamətlərinə uyğun qurmuşlar. Komitə tərəfindən müvafiq təsərrüfatlarda mütəmadi olaraq monitorinqlər keçirilir. Görülən işlərin davamı kimi cari ildə “Ailə rifahı naminə qadınları maarifləndirək” layihəsinin icrasına başlanılıb. Mart ayı ərzində layihənin açılış mərasimi keçirilib, ötən müddət ərzində muxtar respublikanın bütün rayonlarında olmaqla layihədə iştirak edəcək 80-dən artıq qadın seçilib.

Komitə sədri bildirib ki, layihə çərçivəsində “Gələcəyini planlaşdır!” və “Sahibkar ol!” təlimlərinin keçirilməsi nəzərdə tutulub. Bugünkü təlimə Naxçıvan şəhəri, Babək və Kəngərli rayonları üzrə layihə iştirakçılarından 24 qadın cəlb edilib. Layihənin icra müddəti cari ilin sonunadək nəzərdə tutulur, iyul-avqust aylarında isə sərmayə kapitalının verilməsi planlaşdırılır. Verilən sərmayə kapitalının 75 faizi ailə təsərrüfatlarının qurulması üçün, 25 faizi isə digər fəaliyyət sahələri üzrə nəzərdə tutulub.

Ramilə Seyidova muxtar respublika qadınlarına göstərdiyi diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova minnətdarlığını bildirib.

Azərbaycan Mikromaliyyə Assosiasiyasının layihə rəhbəri Sevinc Rüstəmova çıxış edərək layihənin şərtləri haqqında slayd vasitəsilə ətraflı məlumat verib. Qeyd edilib ki, təlimlər layihə iştirakçıları olan qadınların maliyyə savadlılığının və idarəetmə vərdişlərinin yüksəldilməsinə, eyni zamanda gəlir mənbələri qismən məhdud olan qadınların, xüsusən də sağlamlıq imkanları məhdud olan qadınların sahibkarlıq fəaliyyətinin təşviq edilməsinə xidmət edir.

Layihə iştirakçısı Xuraman Seyidova onlara göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlığını bildirib.

Sonra maliyyə savadlılığı üzrə “Gələcəyini planlaşdır!” təliminə start verilib. Təlim qarşılıqlı diskussiya şəklində keçilib. Layihədə iştirak edən digər rayonların qadınları üçün də təlimlərin keçirilməsi nəzərdə tutulub. Sonda qadınlara müvafiq sertifikatlar veriləcəkdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ailə, Qadın və Uşaq Problemləri**
**üzrə Dövlət Komitəsinin**
**mətbuat xidməti**

## “Kabel texnologiyaları və bu sahədə ən son yeniliklər” mövzusunda seminar olub



Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən ixtisaslı kadrların hazırlanması, işçilərin zəruri peşə istiqaməti üzrə biliklərinin artırılması, habelə müvafiq peşə ixtisasına yiyələnmələri istiqamətində müvafiq tədbirlər həyata keçirilir. Bu tədbirlərin davamı olaraq nazirliyin təşkilatçılığı ilə “Buta Global Enerji” şirkəti və Prysmian Group tərəfindən nazirliyin və tabeli qurumlarının əməkdaşları üçün “Kabel texnologiyaları və bu sahədə ən son yeniliklər” mövzusunda seminar keçirilib.

Seminarı giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası rabitə və yeni texnologiyalar nazirinin müavini Həbib Novruzov rabitə və yeni texnologiyalar sahəsinə göstərilən dövlət qayğısından bəhs edərək bildirib ki, muxtar respublikada sosial-iqtisadi həyatın bütün sahələrində yeni texnologiyalar geniş tətbiq olunur, bu sahənin maddi-texniki bazasının gücləndirilməsi, əhalinin informasiya-kommunikasiya texnologiyalarına çıxış imkanlarının yaxşılaşdırılması, mobil rabitə xidmətinin əhatə dairəsinin genişləndirilməsi diqqətdə saxlanılır.

Nazirliyin aparat rəhbəri Əziz Hümbətov bildirib ki, muxtar respublikanın mövcud telekommunikasiya şəbəkəsinin əsasını təşkil edən fiber-optik şəbəkə vasitəsilə bütün yaşayış məntəqələrinə və bir sıra qurumlara kəsintisiz rabitə və internet xidmətləri təqdim olunur. Vurğulanıb ki, muxtar respublikada fiber-optik telekommunikasiya şəbəkəsi qurularkən, habelə bir sıra qurumlara və “Evədək optika” layihəsi çərçivəsində fərdi mənzillərə fiber-optik xətlər çəkilən zaman İtaliyanın nüfuzlu şirkəti Prysmian Qrupunun kabel məhsullarından istifadə olunur. Yüksəkkeyfiyyətli, odadavamlı olmaqla Prysmian Draka kabelləri bir sıra üstünlüklərə malikdir. İstifadə edilən kabellər İtaliya keyfiyyət standartlarında və Türkiyə istehsal gücündə Naxçıvan Muxtar Respublikası üçün xüsusi istehsal olunur.

Prysmian Group Beynəlxalq Şirkətin Türkiyə təmsilçiliyinin türkdilli ölkələr, Mərkəzi Asiya, Afrika, Hindistan və Pakistan üzrə ixracat direktoru Murat Tezcan Kabel texnologiyaları və bu sahədə ən son yeniliklər haqqında ümumi məlumat verib. Qeyd edilib ki, şirkət tərəfindən telekommunikasiya sahəsi üçün geniş çeşiddə fiber-optik liflər, mis kabellər və qoşulma sistemləri istehsal edilir. O da diqqətə çatdırılıb ki, rabitə kabellərinin çəkilməsi məsuliyyətli bir işdir. Bu səbəbdən kabellərin qaydalara uyğun şəkildə çəkilməsi kabel xətlərinin etibarlı işləməsini təmin edir.

Daha sonra Prysmian Group mühəndisləri Barış Sönməz və Volkan Kavaklıoğlu slaydlar vasitəsilə fiber-optik kabellər və texniki xüsusiyyətlər, mis rabitə kabellərinin tətbiqi sahələri və ən son yeniliklər barəsində məlumat veriblər. Vurğulanıb ki, fiber-optik kabellərdən bir çox telekommunikasiya şəbəkələrində telefon siqnallarını, internet rabitəsini və kabel televiziya siqnallarını ötürmək üçün istifadə edilir. Fiber-optik kabel mis tellərdən daha incə olsa da, eyni diametrdə daha çox məlumat daşıyır və daha az siqnal itkisi müşahidə olunur. Həmçinin fiber-optik kabellər son illərdə dünyada getdikcə daha çox istifadə edilir. Sonda iştirakçıların sualları cavablandırılıb.

**Naxçıvan Muxtar Respublikası**
**Rabitə və Yeni Texnologiyalar Nazirliyinin**
**mətbuat xidməti**

Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidməti və onun yerli qurumları tərəfindən may ayında

## Operativ vergi nəzarəti tədbirləri davam etdirilir



muxtar respublika ərazisində fəaliyyət göstərən ticarət, iaşə, xidmət və digər sahələrdə yoxlama və monitorinqlər davam etdirilib, 11 vergiödəyicisində qanunvericiliyin pozulması faktları aşkar edilib. Operativ vergi nəzarəti tədbirləri zamanı həmin vergiödəyicilərində “Fərqlənmə nişanı” olmadan avtomobil nəqliyyatı ilə sərnişindaşıma ilə məşğulolma faktları aşkarlanıb və həmin şəxslər barəsində qanunamüvafiq tədbirlər görülüb.

**Naxçıvan Muxtar Respublikası**
**Dövlət Vergi Xidmətinin**
**mətbuat xidməti**

# Türkiyə Gənclik Vəqfi İqdır İl təmsilçisi Cəmaləttin Cantəpə: “Naxçıvana növbəti dəfə fərqli proqramla, daha geniş layihə ilə gələcəyik”



*Türkiyə Gənclik Vəqfi (TÜGVA) tərəfindən türkiyəli gənclərin Naxçıvan Muxtar Respublikasına səfəri təşkil edilib. Səfər çərçivəsində ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzindəki abidəsi və Heydər Əliyev Muzeyi, türk xalqının böyük öndəri Mustafa Kamal Atatürkün büstü, “Xan Sarayı” Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi, “Əshabi-Kəhf” Ziyarətgahı Dini-Mədəni Abidə Kompleksi ziyarət edilib. Qonaqlar Duzdağ Fizioterapiya Mərkəzi, Naxçıvan Dövlət Universiteti ilə tanış olub, Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunda naxçıvanlı gənclərlə görüşdə iştirak ediblər. Görüşdə Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun direktoru Cəbi Quliyev və Türkiyə Gənclik Vəqfi İqdır İl təmsilçisi Cəmaləttin Cantəpə çıxış edərək iki ölkə arasındakı qardaşlıq əlaqələrindən, Türkiyə və Azərbaycan Gənclər fondlarının bu günədək birgə həyata keçirdiyi layihələrin əhəmiyyətindən, hər iki ölkə gənclərinin ortaq maraqları əsasında davam edəcək sıx əməkdaşlıq və planlardan söz açıblar. Görüşün sonunda konsert proqramı olub. Naxçıvan Musiqi Kollecinin instrumental ansamblı tərəfindən təşkil edilən konsert qonaqlara xoş ovqat bəxş edib. Türkiyəli qonaqlar “Şərq qapısı” qəzetinə müsahibə verib.*

***Türkiyə Gənclik Vəqfi (TÜGVA) İqdır İl təmsilçisi Cəmaləttin Cantəpə:*** – Biz Türkiyə Gənclik Vəqfi olaraq Türkiyə gəncləri ilə Azərbaycan, xüsusən də naxçıvanlı gənclərin yaxşı əlaqələr qurmasını istəyirik. Buna Naxçıvana yaxın olan İqdırdan da dəstək vermək istədik, İqdır Universitetində təhsil alan gənclərlə belə bir tur keçirməyi qərara aldıq. Düşündük ki, həm onlar, həm də buradakı gənclər üçün gözəl başlanğıc və yaxşı proqram olacaq. Naxçıvandakı aid təşkilatlarla da əlaqə saxladıq və müsbət cavab aldıq. Nəticədə, gənclərimizlə bugünkü gözəl səfəri təşkil etdik. Səfərimiz olduqca maraqlı keçdi. Gənclərimiz bir-birlərini daha yaxından tanıdılar, fikir mübadiləsi etmək imkanları oldu. TÜGVA İqdır İl təmsilçisi kimi məqsədimiz gənclərə ən gözəl və ən yaxşı xidməti göstərməkdir. Naxçıvana olan səfərimizlə də bunu təmin etdiyimizi düşünürəm. İqdıra çox yaxın şəhər olsa da, ilk dəfədir, Naxçıvandayam. Buraya gəldiyim üçün çox şadam. Qonaqpərvərlik gözəldir, insanlar mehribandır, indiyədək bura gəlmədiyimiz üçün təəssüfləndik. Naxçıvana növbəti dəfə fərqli proqramla, daha geniş layihə ilə gələcəyik. Bunun üçün təkcə İqdırda deyil, Türkiyənin müxtəlif bölgələrində daha böyük tədqiqatlar aparmağı planlaşdırırıq.

Onu da qeyd edim ki, Naxçıvana gənclərimizin marağı böyükdür. Keçən il Azərbaycan-Türkiyə gənclərinin Zəfər Düşərgəsi təşkil edilmişdi. Burada gənclər çox gözəl əlaqələr qurublar, razı qalıbar. Naxçıvanda olan gənclər buraya yenidən gəlmək istəyirlər. Əminəm ki, bu gün burada iştirak edən gənclərimiz də onlar kimi düşünəcək. Biz naxçıvanlı gəncləri də İqdırda qonaq etmək istəyirik. Yalnız İqdırda deyil, müxtəlif bölgələrimizdə də onları qarşılaya bilər, onlar üçün əlimizdən gələni edərik.

***Songül Meriç – İqdır Universitetinin İlahiyyat fakültəsinin tələbəsi:*** – Naxçıvana gəldiyim üçün sevinirəm. Naxçıvan ilk baxışdan gözəldir. Bu mənada, binaları, xüsusilə tarixi binaları, muzeyləri, abidələri qeyd edərdim. Burada bir çox yerləri gəzdik. Heydər Əliyev Muzeyində bu dövlətin qurucusunu bir daha yaxından tanıdıq. Türk dünyasının böyük öndəri Mustafa Kamal Atatürkün büstünü ziyarət etdik, duyğulandıq, qürurlandıq. Çox sevindik ki, Naxçıvanda da bu böyük türk sərkərdəsinin xatirəsi yaşadılır, əziz tutulur. Xan sarayının naxçıvanlı xanların yaşadığı bir yer olduğunu öyrəndik. Bu, həqiqətən də, maraqlıdır. İstərdim ki, digər türk gənclər də gəlsinlər, bu cür tarixi yerləri gəzsinlər. Axı bizim dədə-babalarımız buradan keçib, burada döyüşüblər, yaşayıblar. Bəli, türk tarixi ilə bağlı bilginizi zənginləşdirmək, ruhunuza xitab edən yerlər görmək üçün Naxçıvan ideal yerdir. Biz Naxçıvanı çox sevdik.

***Asiyə Avcı – İqdır Universitetinin Aşbazlıq bölməsinin tələbəsi:*** – Əvvəlcə mən bu səfəri təşkil edənlərə, Naxçıvana gəlməyimiz üçün bizə şans yaradanlara təşəkkür edirəm. Buradakı insanlar mehribandır, qayğıkeşdir. Bizi çox yaxşı qarşıladılar, heç nəyimiz əskik olmadı. Naxçıvan bir elm, mədəniyyət ocağıdır. Buradakı tarixi-dini abidələr Naxçıvan haqqındakı düşüncələrimizi zənginləşdirdi. Möminə xatın türbəsi eşitmişdim ki, bir qadının şərəfinə ucaldılıb, amma belə gözəl memarlıq üslubu olduğunu bilmirdim. Bu memarlıq nişanələri türk xalqının zəkasının nə qədər dərin olduğunu, necə bir-birinə yaxın və qardaş olduqlarını bir daha göstərir. Naxçıvan mətbəxinin zəngin olduğunu eşitmişəm. Bu mövzuda da öyrənəcəklərim oxuduğum peşə üzrə mənə çox yardımçı olacaq. Naxçıvana belə səfərlərin daha çox olmağını istəyirəm. Naxçıvan gəzdikcə daha çox öyrənəcəyimiz bir yerdir.

***Zilan Təkinalp – İqdır Universitetinin İlahiyyat fakültəsinin tələbəsi:*** – Bu il universitetdən məzun oldum. Türkiyə Gənclik Vəqfinin dəstəyi ilə təşkil edilən bu səfərdə iştirakımdan çox məmnunam. Naxçıvanın bir çox xüsusiyyətlərini bəyəndim. Açığı, ilk gözümə dəyən şəhərin çox təmiz olmasıdır. Ekoloji baxımdan çox xoşuma gəldi.



Tarixi nöqteyi-nəzərdən, siyasi gündəmdə də iki xalqın bir-biri ilə bağlılığının həmişə şahidi olmuşuq. Bu bağlılığın muzeylərdə sənədləşdirildiyini görməkdən böyük zövq aldım. Bununla da beynimizdəki tarixi bağlılığı bir daha yenilənmiş olduq. Adı müqəddəs kitabımız olan “Qurani-Kərim”də də keçən Əshabi-kəhfi ziyarət etdik. Uca dağlarla əhatəli bu yerin aurası ilk baxışdan insanı özünə cəzb edir. Allah sanki bu yerlərə bir möcüzə bəxş edib. Oranı yaxşıca gəzdik, dualarımızı etdik. Bu dini abidə çox böyük heyrət hissi yaşatdı. Naxçıvan səfəri bizim üçün əla keçdi.

***Mustafa Gözəl – İqdır Universitetinin Səhiyyə Xidməti Məslək Yüksəkokulunun tələbəsi:*** – Mən Türkiyənin Şanlıurfa bölgəsindənəm, İqdırda təhsil alıram. İlk dəfədir ki, Naxçıvana gəlirəm. Bir çox yerləri gəzdik. Öncə deyim ki, şəhər memarlıq cəhətdən mükəmməl qurulub. Oxuduğum ixtisas üzrə Duzdağ mənim diqqətimi daha çox çəkdi. Duzdağ Fizioterapiya Mərkəzi şəfaverici xüsusiyyəti ilə seçilir. Səhiyyə turizmi yeri kimi Duzdağ tanınır və buraya bir çox ölkələrdən insanlar müalicə üçün gəlirlər. Burada öyrəndiklərim mənim üçün əhəmiyyətli idi və mənimlə birgə təhsil alan digər dostlarıma da bu barədə danışacağam. Əminəm ki, Naxçıvan onların da diqqətini çəkəcəkdir.

***Sərdar Öztürk – İqdır Universitetinin İlahiyyat fakültəsinin doktorantı:*** – Müxtəlif şəhərlərin tarixi, mədəniyyəti məni çox maraqlandırır. Lakin Naxçıvana olan marağım bir başqadır. Bu gün biz Naxçıvanın bir çox gəzməli, görməli yerlərində olduq. Duzdağ Fizioterapiya Mərkəzi və Əshabi-kəhf ziyarətgahı isə mənim üçün ən yaddaqalan məkanlardan oldu. Türkiyədə də Duzdağ və Əshabi-kəhf var. Lakin buradakı Duzdağ da, Əshabi-kəhf də çox fərqlidir. Naxçıvandakı Duzdağda insanlar üçün yüksək səviyyəli səhiyyə xidməti üçün hər cür şərait yaradılıb. Bu, Naxçıvanda insanların sağlamlığına necə böyük diqqətlə yanaşıldığını göstərir. Yerin altında belə gözəl müalicə mərkəzi yaratmaq və xəstələrinin təbii yolla müalicəsinə nail olmaq düşünürəm ki, mükəmməldir. Türkiyənin Mərsin və Diyarbəkir şəhərlərində də Əshabi-kəhf mağaraları var. Ancaq bu ziyarətgahın daha fərqli bir mənəvi təsiri vardır. Onu da deyim ki, biz orada başqa ölkələrdən də Əshabi-kəhfə ziyarətə gələnlər




olduğunu gördük. Bu ziyarətgah əsl dini turizm mərkəzinə çevrilib. Bu, xalqın dini inanc yerlərinə dövlətin diqqət və ehtiramının nişanəsidir. Görülən işlər milli-mənəvi dəyərlərin qorunub saxlanılması ilə yanaşı, əxlaqi keyfiyyətlərin də burada üstün tutulmasının göstəricisidir.

***Şəfa İşlər – İqdır Universitetinin Bədən Tərbiyə və İdman Yüksəkokulunun tələbəsi:*** – Bir çox böyük şəhərlərdə olmuşam, bu şəhərlərin yüksək müasirliyini, inkişafını Naxçıvanla müqayisə etsəm, yəqin ki, heç bir fərq tapa bilmərəm. Naxçıvan da hər yer yaşıllıq, al-əlvan gül-çiçək içərisindədir. Getdiyimiz məkanlar o qədər təmizdir ki, inanın, bu təmizliyi başqa şəhərlərdə görmək mümkün deyil. Bütün bunlar insanların zəhmətkeşliyindən, gözəlliyə vurğunluğundan xəbər verir. Burada infrastruktur elə qurulub ki, heç bir nöqsan yoxdur. Diləyirəm ki, bu diyar gündən-günə çiçəklənsin, onun mədəniyyətinin, təhsilinin, elminin yeni-yeni nailiyyətləri bizi daha da sevindirsin.



***Mehriban Özdəmir – İqdır Universitetinin Fənn ədəbiyyat fakültəsinin Türk dili və ədəbiyyatı ixtisasının məzunu:*** – Naxçıvana ilk dəfədir, gəlirəm. Bu səfər məni çox sevindirdi. Çünki Naxçıvanın turistik yerləri ilə internet üzərindən çox maraqlanmışam. Hər zaman buraya gəlmək arzusunda olmuşam. Şəkillərdə gördüyümdən daha gözəldir bu şəhər. Xüsusilə də memarlıq üslubu mənim çox diqqətimi çəkdi. Ziyarət zamanı Naxçıvan Gənclər Fondu və Turizm Departamentinin əməkdaşları bizi müşayiət etdilər. Bizi çox gözəl qarşıladılar. Buranın insanları, doğrudan da, çox istiqanlı, kömək etməyi sevəndirlər. Bir çox gəzməli-görməli yerləri ziyarət etdik. Ən təsirlisi Əshabi-kəhf ziyarətgahı idi. Burada insan o qədər saflaşır, paklaşır ki, sanki dünyaya yenidən gəlir. Naxçıvan, mən deyərdim ki, mədəniyyət mirasıdır. Və mən bütün yaxınlarıma belə asanlıqla gedə biləcəyimiz bu yerləri gəlib görməklərini tövsiyə edirəm. Arzum budur ki, iki ölkənin dövlət başçıları arasındakı dostluq və xalqlarımız arasındakı qardaşlığı gənclər olaraq davam etdirək, azərbaycanlı gənclərlə əlaqələrimiz daha da möhkəmlənsin.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**
**✍ Gülcamal TAHİROVA**

# Ötən dövr ərzində 5801 obyektdə 2 milyon 236 min kvadratmetrdən artıq sahə dezinfeksiya olunub

*Naxçıvan Muxtar Respublikasında yaradılan şərait əhalinin rifahını, sağlamlıq imkanlarını yüksəltmiş, insan sağlamlığının təminatına dayaq olmuşdur. Bu özünü son illərin ən aktual probleminə çevrilən pandemiya ilə mübarizəyə qarşı muxtar respublikamızda aparılan tədbirlərin müsbət nəticələrində daha aydın büruzə verir.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi diqqət və qayğısı sayəsində muxtar respublikada COVID-19 infeksiyasına qarşı qabaqlayıcı tədbirlər yüksək səviyyədə təşkil edilmiş, xəstəliyin geniş yayılmasının qarşısı alınmış, əhali infeksiya ilə mübarizədə fəal iştirak etmişdir. Bütün bunlara görə Naxçıvanda pandemiyaya qarşı görülən işlər, aparılan tədbirlərin müsbət nəticələri nümunə olmuşdur. İnfeksiya ilə mübarizə tədbirlərinin gücləndirilməsi istiqamətində görülən işlərdən biri də 2021-ci ildə Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinin binasının yenidən tikilərək ən müasir tibbi avadanlıqlarla və lazımi reaktiv və dezinfeksiyaedici vasitələrlə təmin edilərək əhalinin istifadəsinə verilməsi verilməsidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2022-ci il 15 fevral tarixli Sərəncamına əsasən “Naxçıvan Muxtar Respublikasında gigiyena və epidemiologiya sahəsində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı 2022-2025-ci illər üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi muxtar respublikada aparılan əks-epidemik tədbirləri, sanitar-epidemioloji xidmətin fəaliyyətini önə çəkmişdir. Proqramın icrası ilə əlaqədar verilmiş tapşırıqların yerinə yetirilməsi məqsədilə muxtar respublikada əks-epidemik tədbirlər çərçivəsində sanitar-epidemioloji xidmətin fəaliyyəti yenidən qurularaq günün tələbləri səviyyəsinə çatdırılmışdır.

Ötən dövr ərzində yaşayış məntəqələrində və əhalinin sıx olduğu yerlərdə qrafikə uyğun dezinfeksiya



işləri aparılmış, idarə, müəssisə və təşkilatların inzibati binaları və xidmət sahələri mərhələli şəkildə dezinfeksiya olunmuşdur. Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzi, onun rayon təşkilatlarının həkim-epidemioloq, epidemioloq köməkçiləri, dezinfektor təlimatçılarının iştirakı ilə təkcə 2022-ci ilin ötən dövrü ərzində muxtar respublikanın şəhər və rayonlarında viruslara yoluxmanın qarşısının alınması, bu sahədə aparılan müvafiq profilaktik tədbirlərin effektivliyinin yüksəldilməsi məqsədilə qrafik əsasında Naxçıvan şəhərində 311, Şərur rayonunda 1040, Babək rayonunda 1207, Ordubad rayonunda 661, Culfa rayonunda 1216, Kəngərli rayonunda 488, Şahbuz rayonunda 330, Sədərək rayonunda isə 549 olmaqla, ümumilikdə, 5801 obyektdə dezinfeksiya işləri aparılmışdır ki, bu da 2 milyon 236 min kvadratmetrdən artıq sahəni əhatə edir. Hazırda genişmiqyaslı dezinfeksiya tədbirləri davam etdirilir. Həmçinin mərkəz tərəfindən may ayı ərzində 20 müəssisədə monitorinqlər aparılmış, Naxçıvan şəhəri ərazisində inşa edilən yaşayış komplekslərinə baxış olmuş, tikintidə çalışan işçilər üçün əmək şəraitinə uyğun nəzərdə tutulmuş soyunub-geyinmə otaqları, xüsusi geyim formaları, sanitar qovşaqlar, yeməkxanaların, ilk tibbi yardım dərmanlarının sanitar norma və qaydalara cavab verib-verməməsi yoxlanılmışdır.

Proqramın icrası ilə əlaqədar olaraq sanitar epidemioloji vəziyyətlə bağlı şəhər və rayon mərkəzi xəstəxanalarında və ambulatoriyalarında monitorinqlər təşkil edilmişdir.

Kütləvi qeyri-infeksion xəstəliklərin qarşısının alınması məqsədilə 2022-ci ilin mart ayından bu günədək Gigiyena və Epidemiologiya Mərkəzinin toksikoloji laboratoriyası tərəfindən qeyri-ərzaq məhsullarında 7 nümunədə 20, ərzaq məhsullarında 10 nümunədə 36 analiz olmaqla, ümumilikdə, 56 müayinə aparılmışdır.

Görülən işlər muxtar respublikada səhiyyənin təkmilləşməsi və əhalinin keyfiyyətli tibbi xidmətlə təmin olunması ilə nəticələnməkdədir. Bu da insan sağlamlığı, rifahı və təhlükəsizliyinə göstərilən qayğının ən bariz nümunəsidir.

***Naxçıvan Muxtar Respublikası***
***Səhiyyə Nazirliyinin***
***mətbuat xidməti***

Axtarışlar, tapıntılar

# Qədim Sədərək şəhəri

***XXI əsrdə Azərbaycan Respublikasının ikinci dəfə müstəqillik qazanması ölkəmizin sosial-iqtisadi və mədəni inkişafında mühüm mərhələnin başlanğıcını qoydu. Bu sürətli inkişafda tarix və mədəniyyət abidələrimizin araşdırılmasına dövlət qayğısının gündən-günə artmasının da şahidi olurduq. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun tövsiyəsi əsasında Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi və dünyanın müxtəlif ölkələrinin universitetləri arasında elmi əlaqələr yaradılmışdır.***



*Beynəlxalq Azərbaycan-Amerika Birləşmiş Ştatları arxeoloji ekspedisiyasının üzvləri*

Bu elmi əlaqələrin sayəsində tarix və mədəniyyət abidələrinin öyrənilməsi ilə bağlı beynəlxalq arxeoloji ekspedisiyalar təşkil edilməkdə, ölkəmizin qədim tarixinin öyrənilməmiş səhifələri üzə çıxarılmaqdadır. Bu ilin may ayında Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi və Amerika Birləşmiş Ştatlarının Pensilvaniya Universitetinin birgə təşkil etdiyi arxeoloji ekspedisiya Sədərək rayonunun qədim Kültəpə yaşayış yerində Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Vəli Baxşəliyev və Pensilvaniya Universitetinin professoru Lauren Ristvetin rəhbərliyi ilə tədqiqatlara başlamışdır.

Sədərək yaşayış yeri ilə bağlı elmi ədəbiyyatda müxtəlif məlumatlar verilmişdir. Azərbaycanın görkəmli arxeoloqları, həmçinin xarici ölkə tədqiqatçıları bu yaşayış yerində olmuş, onun böyüklüyünə heyrət etmişdir. Yaşayış yerində ilk arxeoloji qazıntılar 2011-ci ildə Vəli Baxşəliyev və Abbas Seyidov tərəfindən kiçik bir sahədə aparılmışdır. Daha sonra müxtəlif illərdə Sədərək Kültəpəsinə beynəlxalq Azərbaycan-Amerika Birləşmiş Ştatlarının arxeoloji ekspedisiyasının üzvləri gəlmiş, yaşayış yerinin planı çıxarılmış və onun 20 hektar sahəni əhatə etdiyi müəyyən olunmuşdur. Yaşayış yerinin tədqiqatları zamanı Sədərək Kültəpəsindən Neolit, Eneolit və Kür-Araz mədəniyyətinə aid olduqca müxtəlif və maraqlı arxeoloji materiallar tapılmışdır. Bu tapıntılara əsasən Sədərək Kültəpəsində həyatın eramızdan əvvəl VII minillikdə başladığını demək mümkündür.

2019-cu ildə beynəlxalq Azərbaycan-Amerika Birləşmiş Ştatları arxeoloji ekspedisiyasının üzvləri Sədərək Kültəpəsində üç müxtəlif yerdə yoxlama qazıntısı aparmış, Erkən Dəmir və Dəmir dövrünün inkişaf etmiş mərhələsinə aid maddi mədəniyyət nümunələri əldə etmişlər.

Qədim Sədərək Kültəpəsi ilə bağlı xalq arasında müxtəlif rəvayətlər var. Bu rəvayətlərdə Sədərək Kültəpəsinin yerində böyük bir şəhərin varlığı, həmin şəhərin tufan nəticəsində məhv olması ilə bağlı məlumatlar öz əksini tapmışdır. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi və Amerika Birləşmiş Ştatlarının Pensilvaniya Universitetinin birgə təşkil etdiyi arxeoloji ekspedisiyanın 2022-ci ilin may-iyun aylarında Sədərək Kültəpəsində apardığı arxeoloji qazıntılar nəticəsində bu əfsanələrin müəyyən tarixi köklərə malik olduğu ortaya çıxmışdır. Arxeoloqların tədqiqatları uğurla nəticələnmiş, Sədərək Kültəpəsində şəhər strukturunun qalıqları, o cümlədən daş döşənmiş küçələr, böyükhəcmli, düzbucaq formalı ictimai binaların qalıqları, dəyərli keramika nümunələri, insanların təsərrüfat həyatını əks etdirən maddi mədəniyyət qalıqları aşkar olunmuşdur. Məlum olduğu kimi, Naxçıvanda şəhərtipli yaşayış yerləri eramızdan əvvəl III minilliyin sonunda meydana çıxmışdır. Tapıntılar sübut edir ki, bu ənənə Dəmir dövründə də davam etmişdir. Sədərək Kültəpəsi Cənubi Qafqazda, o cümlədən Azərbaycanda Dəmir dövrünə aid ən qədim şəhər yeridir. Arxeoloji araşdırmalar zamanı bu şəhərin yalnız bir qisminin – 600 kvadratmetrlik sahəsinin qalıqları aşkar olunmuşdur. 2019-cu ildən aparılan tədqiqatlar zamanı bu şəhərin tarixi də müəyyənləşdirilmişdir. Karbon nümunələrinin analizi şəhərtipli strukturların təqribən eramızdan əvvəl 900-790-cı illərdə, yəni Urartuların Cənubi Qafqaza yürüşlərindən xeyli əvvələ aid olduğunu müəyyən etməyə imkan vermişdir.




*Sədərək Kültəpəsinin planı*



*Sədərək Kültəpəsində daş döşəməli küçə və böyük binaların qalıqları*

Diqqətçəkici məqamlardan biri də şəhərin düzənlik ərazidə salınmasıdır. Etnoqrafik məlumatlar göstərir ki, bu ərazidən vaxtilə gursulu çay axmış, şəhər çayın kənarında yerləşmişdir. Tədqiqatlar yeni başladığından şəhərin içməli su təminatı ilə bağlı fikir demək çətindir. Bu tip şəhərlərin su təminatı, əsasən, saxsı və ya daşdan hazırlanmış su boruları vasitəsilə olmuşdur. Daş döşəmələrin, böyük ictimai binaların aşkar edilməsi şəhərin qaynar və zəngin həyata malik olduğunu göstərir. Tapıntılar göstərir ki, şəhər sakinləri daşdan və gildən hazırlanmış qablardan, təsərrüfat məqsədilə isə böyük küplərdən istifadə etmişlər.

Sədərək Kültəpəsinin Son Tunc və Erkən Dəmir dövrləri təbəqəsi eramızdan əvvəl XIV-IX əsrləri əhatə edir. Yaşayış yerinin digər dövrlərinə aid mədəni təbəqə hələlik aşkar edilməmişdir. Ehtimal edirik ki, Neolit və Eneolit dövrlərinə aid qədim yaşayış yeri şəhərin qalıqları altında qalmışdır. Eramızdan əvvəl III-II minilliyin ortalarında burada məskunlaşan Kuti tayfaları Urartu yazılarında Etiuni adı ilə xatırlanmışdır. Assur mənbələri Urartuların şimal tayfaları ilə müharibədə məğlubiyyətindən, Urartu mənbələri isə Etiuni kralları ilə görüşlərdən məlumat verir. Eramızdan əvvəl VIII əsrdə Urartuların Cənubi Qafqaza yürüşlərinin aktivləşməsi şəhər sakinlərini Sədərək qalasını inşa etməyə vadar etmişdir. Sədərək qalası, Qızqala, Oğlanqala kimi möhtəşəm müdafiə sistemlərində möhkəmlənən ulu əcdadlarımız düşmənə əzmlə müqavimət göstərmişdir. Etiunilər Urartu mənbələrində ən çox xatırlanan tayfalardan biridir. Azərbaycanın qərb bölgələrində və Naxçıvanda məskunlaşan bu tayfalar ölkəmizin torpaqlarını yadellilərdən mərdliklə qorumuşlar. Sədərək həm indi, həm də qədimdə doğma Naxçıvanımızın qeyrət qalası olmuşdur.

Gələcək araşdırmalar zamanı Sədərək şəhərinin digər strukturları da aşkar olunacaq, əldə olunan nadir arxeoloji materiallar Azərbaycan, o cümlədən Naxçıvan tarixinin yeni səhifələrini üzə çıxarmağa imkan verəcəkdir.

**Vəli BAXŞƏLİYEV**
*Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü*

Yeni nəşrlər

# Müasir Azərbaycan dilinin tədrisinə yeni töhfə

***Respublikamız müstəqillik dövrünə qədəm qoyduqdan sonra, xüsusilə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan, bir ucu Qərbdən, digər ucu Şərqdən gələn tarixi və strateji əhəmiyyətli Naxçıvan Muxtar Respublikasında sarsılmaz özülə malik olan milli-mənəvi dəyərlərimizə, elm və təhsil sahəsinə, ədəbi yaradıcılığa qayğı artmışdır. Naxçıvan həmişə sözün, sənətin, ədəbiyyatın beşiyi kimi şöhrət qazanmış, bu doğma diyar dünya mədəniyyətinə nadir incilər bəxş etmişdir. Dil və üslub baxımından Naxçıvan şairlərinin əsərləri az araşdırıldığından onların tədqiq olunmasına ciddi ehtiyac vardır.***

Bu baxımdan filologiya üzrə fəlsəfə doktoru Elburus Vəliyevin bu günlərdə işıq üzü görən “Qrammatik məfhumların tədrisində bədii ədəbiyyatlardan istifadə” (naxçıvanlı yazarların əsərləri üzrə) adlı dərs vəsaiti məxsusi olaraq diqqəti cəlb edir və bu sahədə mövcud olan boşluğu doldurmaq baxımından ciddi əhəmiyyət kəsb edir. Nəşrin elmi redaktoru filologiya üzrə fəlsəfə doktoru Nicat Yaqubov, rəyçiləri filologiya elmləri doktoru, professor Sədaqət Həsənova və filologiya üzrə fəlsəfə doktoru, dosent Qalibə Hacıyevadır. Azərbaycan dilindəki qrammatik kateqoriyaların mənimsədilməsində, xüsusən nəzəriyyə ilə təcrübənin uzlaşmasında mühüm əhəmiyyətə malik olan dərslik Naxçıvan Dövlət Universitetinin Elmi Şurasının 2021-ci il 3 aprel tarixli qərarı ilə çap olunmuşdur.

Dərs vəsaiti “Ön söz”, 9 bölmə, “Nəticə” və “İstifadə edilmiş ədəbiyyatların siyahısı”ndan ibarətdir. Əsərdə məxsusi olaraq Azərbaycan dilində formadüzəldən şəkilçi morfemlərin təsnifi, şəkilçi morfemlərin dilin qrammatik quruluşunda tutduğu mövqe, onların yerinə yetirdiyi funksiyalar və bir sıra məsələlər araşdırılmışdır. Əsərin ərsəyə gəlməsinin aktuallığını şərtləndirən, zəruriliyi haqqında geniş bəhs edən müəllif ön sözdə yazır: “Bu vəsaitin hazırlanmasında əsas obyekt olaraq məhz Naxçıvan ədəbi mühitinə məxsus şairlərin əsərləri seçilmişdir. Çünki Azərbaycan yazarlarının əsərlərinin dil xüsusiyyətləri istənilən qədər araşdırılıb, təhlilə cəlb olunub, yüzlərlə məqalə yazılıb, onlarla kitab çap edilib. Ancaq Naxçıvan ədəbi mühitində formalaşmış, püxtələşmiş orta və cavan, yaşlı şairlərin əsərləri ya az tədqiq olunub, ya da heç araşdırılmayıb”.

Məlumdur ki, ötən əsrin 70-ci illərindən üzü bəri Naxçıvan ədəbi mühitində formalaşmış şairlərin əsərləri dil materialları ilə zəngin bir xəzinədir. Buna görə də müəllif sarsılmaz özülə malik olan bu xəzinədə Azərbaycan ədəbi dilinin bütün sahələrinə: fonetik, leksik, morfoloji, sintaktik və digər şöbələrinə aid nümunələri toplamış və təhlil süzgəcindən keçirmişdir. Naxçıvan ədəbi mühitinin yetirmələrinin şeir dilində morfoloji və sintaktik yolla yaranan sözlər arasında leksik morfemlərlə düzələn yeni sözlər geniş şəkildə araşdırmaya cəlb edilmişdir.




“Hüseyn Razinin şeir dilində şəkilçi morfemsiz predikativlik və seqment cümlələr” adlı ilk bölmədə müəllifin qənaətincə, şairin şeir yaradıcılığı forma və üslub baxımından, həmçinin söz düzümünə görə digər sənətkarlardan fərqlənir, o, əsərlərində real dil faktlarından istifadə etmişdir.

“Asim Yadigarın şeirlərində işlənmiş elliptik hadisəli söz birləşmələri və cümlələrin işlənmə məqamları” adlı növbəti bölmədə tanınmış şairin çoxşaxəli yaradıcılığının müxtəlif istiqamətlərinə müraciət olunur. Müəllifin araşdırmasının nəticəsi olaraq Asim Yadigarın şeirlərində elliptik hadisəli yarımçıq cümlələrə rast gəlinmir.

Əsərin “Vaqif Məmmədovun şeirlərində morfoloji yolla söz yaradıcılığı” adlı bölməsi də dil faktlarının zənginliyi və intensivliyi cəhətdən diqqəti özünə cəlb edir. Unudulmaz sənətkarın şeirlərinin dili zəngindir və dil materialları ilə yoğrulmuş bir xəzinədir. Şairin yaradıcılığında əsas nitq hissələrinə aid maraqlı dil vahidləri kifayət qədərdir ki, bütün bu dil faktları yeni nəşrdə təhlil edilir.

“Xanəli Kərimlinin yaradıcılığında işlənmiş söz birləşmələri və onların sintaktik xüsusiyyətləri” bölməsində qeyd edilir ki, şairin şeirlərində və digər deyimlərində ismi və feili birləşmələrdən daha çox istifadə olunub. Maraqlıdır ki, şairin şeirlərində işlənmiş təyini söz birləşmələri içərisində III növ təyini söz birləşmələri daha çox diqqəti cəlb edir və onların əksəriyyəti elliptik formalıdır. Bu da, çox şübhəsiz ki, şeirin lakonikliyini daha çox artırır və nitqimizin daha da çox sadələşməsinə, axıcılığına, emosionallığına xidmət edir.

Əsərin “Əbülfəz Muxtaroğlunun şeirlərində morfoloji və sintaktik yolla söz yaratmaq imkanları” bölməsində şairin dil vahidləri ilə çox zəngin olan bədii məxəz hesab oluna biləcək şeirləri kitabda geniş şəkildə tədqiq olunmuşdur.

“Elxan Yurdoğlunun şeirlərində işlənmiş isim və feillərin morfoloji xüsusiyyətləri” başlıqlı paraqrafda əsas nitq hissələri olan isim və feillərin işlənmə tezliyi və məqamları, həmçinin bədii tutumu araşdırılmışdır. Müəllifin fikrincə, Elxan Yurdoğlu şeirlərində ən çox isimlərdən və isimlərin təkrarı ilə yaranan təriflərdən, bir də elliptik formalı cümlələrdən – misralardan istifadə etmişdir.

Əsərdəki “Qafar Qəribin şeirlərinin sintaktik xüsusiyyətləri” adlı bölmə də maraqdoğuran tədqiqatlardandır. Elburus Vəliyev Qafar Qəribin şeirlərində Azərbaycan dilinin bütün fonetik, leksik, morfoloji, sintaktik xüsusiyyətlərinə aid nümunələrin kifayət qədər olduğunu əminliklə qeyd edir. Habelə tədqiqat zamanı onun şeirlərində xeyli dialektizmlərə, onomastik vahidlərə, neologizmlərə, köhnəlmiş sözlərə və digər dil vahidlərinə rast gəldiyini və bu dil vahidlərinin ədəbi dilin zənginləşməsindəki rolundan geniş söz açır.

“Rahil Tahirlinin şeirlərində morfoloji və sintaktik yolla söz yaradıcılığı” adlı bölmədə həmin şeirlərdə şəkilçi morfemlərlə düzəlmiş yeni vahidlər, habelə sintaktik yolla sözyaratma üsulları ilə düzələn, bədii tutumu ağır olan söz və ifadələr seçilib nümunə kimi təhlil olunmuşdur. Və nəhayət, dərsliyin “Qanun Ümmanın şeirlərində işlənmiş leksik morfemlərlə düzəlmiş leksemlər” adlı sonuncu bölməsində şairin şeirlərində saysız-hesabsız düzəltmə sözlər araşdırılmışdır.

Qeyd edək ki, bu vəsait deməyə imkan verir ki, Naxçıvan ədəbi mühitinin görkəmli sənətkarlarının yaradıcılığı ədəbi-bədii xüsusiyyətləri ilə ümum-Azərbaycan ədəbiyyatını zənginləşdirən nümunələr olduğu kimi, naxçıvanlı şairlərin əsərlərinin dil xüsusiyyətləri ədəbi dilimizi zənginləşdirən dəyərli mənbə kimi də diqqətəlayiqdir və bu qisim şairlərin əsərlərinin dilçilik nöqteyi-nəzərdən araşdırılması çoxsaylı yeni dil faktlarının aşkarlanmasına zəmin yarada bilər. Bolonya sistemində tədris prosesində irili-xırdalı çətinlikləri aradan qaldırmaq üçün, yəni müasir Azərbaycan dilinin bütün şöbələrini ən kiçik detalları ilə mənimsətmək, xüsusən nəzəriyyə ilə praktikanın vəhdətinə nail olmaq üçün haqqında bəhs etdiyimiz yeni nəşr olduqca əhəmiyyətli tədris vəsaitidir.

**Zülfiyyə İSMAYIL**
*AMEA Naxçıvan Bölməsinin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru, dosent*

# Məktəbəqədər tərbiyə müəssisələrinə işə qəbul müsabiqə yolu ilə aparılır

Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən məktəbəqədər təhsil müəssisələrinə işə qəbul üçün elan edilmiş müsabiqənin test imtahanlarına start verilib. “Naxçıvan Muxtar Respublikasında pedaqoji heyətin dövlət ümumi təhsil, məktəbəqədər təhsil və peşə təhsili müəssisələrinə işə qəbulu, bilik və bacarıqlarının qiymətləndirilməsinin aparılması Qaydaları”nın təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 14 aprel tarixli Qərarına uyğun olaraq ilk dəfə keçirilən müsabiqəyə 33 tərbiyəçi-müəllim, 9 musiqi rəhbəri və 1 tibb bacısı olmaqla, ümumilikdə, 43 vakant vəzifə çıxarılıb.

Müsabiqədə 60 namizəd qeydiyyatdan keçib. Tərbiyəçi-müəllim vəzifəsi üzrə keçid balını (24) toplamaqla ən yüksək nəticə göstərən namizəd vəzifəyə təyin olunur. Tibb bacısı üzrə keçid balını (40) toplayan namizədlər klinik tapşırıq mərhələsində iştirak edəcəklər. Musiqi rəhbəri üzrə keçid balını (24) toplamış namizədlər üçün qabiliyyət imtahanı keçiriləcək.

*Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti*







# Qarabağ Azərbaycanın musiqi beşiyidir

Qarabağ – 30 illik həsrətin sonunda vüsalına qovuşduğumuz mədəniyyət incimiz, musiqi beşiyimiz! Musiqi mədəniyyətimizin bütün yaradıcılıq qolları yüzilliklərboyu bu torpaqda yanaşı addımlamışdı. Aşıq sənətinin, muğamın, xalq mahnılarının beşiyidir Qarabağ! Bəlkə də, bu səbəbdən xalq arasında məşhur olan bu ifadə formalaşıb: “Qarabağda hamının gözəl səsi olur, hətta körpələr muğam üstə ağlayıb, gülürlər”. Bu yurdun musiqi tarixi özü qədər qədimdir. Bu müqəddəs yurd yeri incəsənətimizə çoxlu xanəndələr, bəstəkarlar, musiqi ifaçıları, şairlər və yazıçılar bəxş etmişdir. Neçə-neçə əsrlər öncə Qurbani, Lələ, Abdulgülablı Valeh, Aşıq Pəri, Aşıq Abdulla (Sarı Aşıq), Aşıq Səməd, Aşıq Abbasqulu, Aşıq Nəcəfqulu, Aşıq Cəfərqulu kimi qüdrətli saz-söz ustadları aşıq sənətinin ən gözəl incilərini məhz bu torpaqda yaratmışlar. Qarabağda ustad aşıqların sazının sehrli simindən çıxan aşıq musiqisi bənzərsiz bir fidan kimi böyümüş, çiçəklənmiş və zamanla musiqi sənətimizin bütün sahələrinə təsir etmişdir. Onun təsirindən “Arazbarı”, “Mani”, “Kərəmi” və Azərbaycanın musiqi simvoluna çevrilən “Qarabağ şikəstəsi” yaranıb.



Musiqi beşiyimiz Qarabağda igidlərin süngü-bıçaqla dastan yazdığı müqəddəs Şuşamız isə musiqi konservatoriyamızdır. Bura Azərbaycan musiqisinin ölməz korifeylərindən olan dahi Üzeyir bəyin musiqi tarixində əbədiləşən əsərlərini yazdığı yurddur. Şuşa Xan qızı Natəvanın, Mir Möhsün Nəvvabın, Xarrat Qulunun, Hacı Hüsnünün, Seyid Şuşinskinin, Xan Şuşinskinin, Zülfi Adıgözəlovun, Rəşid Behbudovun, Zülfüqar Hacıbəyovun, Fikrət Əmirovun, Niyazinin, Soltan Hacıbəyovun, Süleyman Ələsgərovun da vətənidir. Qarabağın, o cümlədən Şuşanın dağlı-yamaclı, güllü-çiçəkli, buz bulaqlı, dağ havalı təbiətindən ilham alan bu musiqiçilərimizin yaratdığı əsərlər dillər əzbəri olub, könüllər fəth edib.

Şeirin, musiqinin vətənidir Qarabağ. Vaqif də, Zakir də bu yerlərdən ilham alaraq ədəbiyyatımıza incilər bəxş edib, şeirdən füsunkar bir çələng hörüblər. Beləcə, musiqi ilə poeziyanın vəhdətindən yaranan Qarabağ muğamları musiqimizin ən təsirli nəğməsinə çevrilib. Yalnız muğamdan ibarət deyil Qarabağın musiqi çələngi. Sevginin nəğməsini dinlədiyimiz “Segah”ı, lirik duyğulara daldıran “Şur”u, iztirabı, həyəcanı, qüssə-kədəri duyduğumuz “Cahargah”ı və mərdlik, gümrahlıq hissi ilə insanı yenidən həyata bağlayan “Rast”ı da var.

Qarabağ mühitində yetişmiş daha bir böyük sənətkar var – Cabbar Qaryağdıoğlu! Xanəndələr xanəndəsi, muğamın ustadı! Xalq musiqimizin, aşıq sənətinin bütün sirlərini dərindən bilən, şeirlər yazan, mahnılar bəstələyən ilk xanəndə kimi tarixə düşən sənətkar! Qaryağdıoğlunun əsas qayəsi Qarabağ musiqi sərvətinin yaşaması və günümüzə qədər gəlib çatması olmuşdur. Ömrünün 60 ilini xalqdan öyrəndiyi və topladığı 500-dən artıq mahnını işləyib, gələcək nəsillərə ötürmək üçün çalışan Cabbar Qaryağdıoğlu Zaqafqaziyada ən yaxşı xalq ifaçısı kimi şöhrət qazanıb. Hətta onu Azərbaycan xalq musiqisinin canlı ensiklopediyası da adlandırırdılar. Onun “Şahnaz”ı, “Qatar”ı, “Heyratı”sı musiqi xəzinəmizin ən qiymətli inciləridir.

Qarabağın adı çəkiləndə Seyid Şuşinskini xatırlamamaq qeyri-mümkündür. Yüksək ifaçılıq məharəti, zil səsi ilə “Arazbarı” aşıq havasını muğam şəklində ilk oxuyan ustad! Qaryağdıoğlu onu “Şərq musiqisinin incisi” adlandırardı. Oxuduğu muğamlar ilə nəinki tamaşaçıları, hətta böyük muğam ustadlarını belə heyrətə gətirərdi. Qarabağ xanəndəlik məktəbinin ən böyük simalarından biri olan Seyid Şuşinski yaxın Şərq xalqları musiqisində ən çox şöhrət qazanmış muğamlardan biri olan, dinləyicidə coşqunluq oyadan “Cahargah” muğamının mahir ifaçısı idi. Bundan başqa, “Mahur”, “Nəva”, “Məsnəvi”, “Mani”, “Arazbarı” və “Heyrati” onun səsi ilə könülləri fəth edib. Xalq musiqimizin çırpınan ürəyi olan Seyid Şuşinski “Rast”da və “Kürdi-Şahnaz”da “Dilkəş”i ilk dəfə oxuyan musiqiçi kimi yaddaşlara həkk olub.

Musiqi beşiyimiz olan Qarabağın böyük ustad tarzəni Aşıq Valeh, xalq alətlərinin xüsusi vurğunu olan, milli məxsusluğu dünyəvi texnika ilə məharətlə birləşdirən Bülbül, böyük saz-söz ustadı Aşıq Abbasqulu, Mikayıl Müşfiqin məşhur “Oxu tar” şeirini həsr etdiyi dahi ustad Qurban Pirimov, “Rast”ın düzlük, mərdlik xüsusiyyətlərini ustalıqla vurğulayan Zülfi Adıgözəlov və Sadıqcan Azərbaycan mədəniyyəti tarixində misilsiz xidmətlər göstərmiş şəxslər olublar. Əvvəllər diz üstündə çalınan tarı ilk dəfə sinəyə qaldıran Sadıqcan həm də bu musiqi alətini təkmilləşdirərək Azərbaycan musiqi alətləri sırasına daxil edən şəxsdir. O, milli musiqi alətlərimizin tacı olan tara cingənə və kök simlər əlavə edərək simlərin sayını 5-dən 11-ə çatdırıb. Onun təkmilləşdirdiyi tar yalnız Azərbaycanda, Qafqazda deyil, hətta Orta Asiyada da geniş yayılaraq ölkəmizin musiqi simvoluna çevrilib.

Qarabağın ayrı-ayrı bölgələrində doğulub, boya-başa çatmış musiqiçilər Azərbaycanın, Qafqazın və yaxın ölkələrin bir çox şəhərlərində konsertlər vermiş, milli musiqimizlə doğma Vətənin sədasını hər tərəfə yaymışlar. Azərbaycanın göz bəbəyi, musiqi beşiyi olan bu yurd yerinin hər bir musiqiçisi öz ifası ilə yeni nəslə sanki Qarabağın bir hissəsini ötürmüş, Şuşanın zəngin və əvəzolunmaz musiqi ruhunu aşılamışlar.

Azərbaycan musiqisinin inkişafında Qarabağdan çıxmış və elə adı Qarabağla qoşa çəkilən, musiqimizin klassiki, opera sənətinin banisi, görkəmli alim, musiqişünas, alovlu publisist, pedaqoq Üzeyir Hacıbəyov! Musiqi adamı yox, elə musiqinin özü olan adam! Onun musiqiləri xalqımızın canına, qanına sirayət edərək mədəniyyətimizin ayrılmaz bir hissəsinə çevrilib. Şərqdə ilk opera olan “Leyli və Məcnun” onun adı ilə bağlıdır. Dövlət Himnimizin musiqisini



bəstələyən dahi Üzeyirin “Koroğlu” operası, “Arşın mal alan”, “O olmasın, bu olsun” operettaları, “Sevgili canan”, “Sənsiz” romansları və daha neçə-neçə əsərləri musiqi xəzinəmizin əvəzolunmaz incilərindəndir.

Biri daha var – adı çəkiləndə insanın ruhu qanad çalıb Qarabağa, gözəl Şuşaya uçur. Bəli, doğru bildiniz, bu, Xan Şuşinskidir. Onun səsində özünəməxsus milli çalarlar var idi. Xanın səsi ürəyə məlhəm olan bulaq suyu, ruha qida verən səhər mehi qədər nəfis və xoş idi. Çünki o, Azərbaycan muğam sənətinin Xanı idi. Mən deyərdim ki, “Qarabağ şikəstəsi”ni onun qədər təsirli oxuyan olmayıb. Xanın adı çəkiləndə qeyri-ixtiyari olaraq Səməd Vurğunun “Azərbaycan” şeirindən bu misralar yada düşür:

*Könlüm keçir Qarabağdan,*
*Gah bu dağdan, gah o dağdan,*
*Axşam üstü qoy uzaqdan*
*Havalansın Xanın səsi,*
*Qarabağın şikəstəsi.*

Elə məhz Xan Şuşinskinin qəribsəyən ruhu Qarabağın musiqi rəmzinə çevrilən bu nəğmə ilə səsləndi igidlərimizi zəfərə. Musiqinin, sənətkarların beşiyi olan, dünyanın ən gözəl məkanı Qarabağ! Düşmənin, yağının işğalında, tapdağında qala bilərdimi?! Əsla! Bu insanların sənətində, anaların laylası, ataların öyüd-nəsihəti ilə qanımıza hopmuşdu Vətən torpağının sevgisi. 30 il idi ki, içimizdə yaralı halda səslənirdi “Qarabağ şikəstəsi”, “Anadır arzulara Qarabağ”, “Şuşanın dağları başı dumanlı”, “Qarabağın maralı” mahnıları. Ürəklə oxuya bilmirdik sanki. Hərdən isə, əksinə, həsrətdən bu mahnıları o qədər içdən oxuyurduq ki, elə bil mahnının sözlərində, tərənəsində dolanırdıq o yurdu. Elə Vətən torpağına həsrət qaldığımız bu illərdə Qarabağla bizi bağlayan ən qırılmaz tellərdən biri də bu mahnılar, musiqilər idi. Onlar necə həsrətində idi İsa bulağının zümzüməsinin, Şuşanın dağlarının və dağlar necə intizarla gözləyirdi bu mahnıları, musiqiləri...

Mahnıların həsrətinə və həsrətin şərqisinə son qoymaq üçün igidlərimiz cəngavərlik yerişini, döyüşə çağırışı ifadə edən “Cəngi”nin sədaları ilə qalxdı Vətənin müdafiəsinə. Onlar döyüşün ən qızğın anında belə topun, güllənin səsini deyil, Şuşanın dağlarında yanğılanan və bütün Azərbaycanda eşidilən Xanın səsini duyurdular. Onun narahat ruhu “Qarabağ şikəstəsi” ilə Vətən oğullarını döyüşə səsləyirdi. Beləcə, zəfər nəğməsi oldu Qarabağın musiqi ilə yoğrulan ecazkar ruhunun təsiri, qəmzəli gülüşü ilə yaddaşlarda qalan Xudayarı cuşa gətirərək Vətən savaşının ən qızğın anında bu şərqini söylətdi:

*Deyirlər, bülbülə çəmən yaxşıdır,*
*İnsançün lalezar, Vətən yaxşıdır.*
*Şair, sorma Vətən nədən yaxşıdır ?*
*Adı gəlcək könlüm dastana döndü,*
*Dastana döndü...*

İndi hər qarışında “Şur”, “Segah” pərvazlanan Qarabağda hər daş, hər qaya igidlərimizin dilindən düşməyən bu azadlıq, qələbə şərqisini dinləyir. “Xudayar təsnifi” ilə həsrətin şərqisi bitdi, zəfərin nəğməsi oxundu musiqi beşiyimiz Qarabağda, Şuşada! Azadlığın nəğməsi ilə Qarabağın bütün dağları, təpələri, dərələri, düzləri gül-çiçəyə büründü. Eşqi ilə şeirlər yazılıb, nəğmələr bəstələnən xarıbülbülün şərəfinə vaxtilə keçirilən festival bərpa edildi. Ana yurdun əsl sahibləri yalnız Qarabağda bitən bu gözəl çiçəyin görüşünə gəldi. Üzeyir Hacıbəyovun, Fikrət Əmirovun, Qara Qarayevin, Ələkbər Tağıyevin, Müslüm Maqomayevin, Niyazinin, Tofiq Quliyevin, Vasif Adıgözəlovun bəstələdiyi əsərlər Şuşanın dağlarında əks-səda doğurdu. Xarıbülbülün ətri və gözəlliyi isə onu görənləri başqa cür heyran etmişdi. Onun ətrində cənnətin qoxusu duyulurdu. Çünki mərd igidlərin qanı ilə sulanan torpağın bağrında bitmişdi. Onun ətrində Vətəni, milləti, yurdu üçün atasını, anasını, yarını, övladını arxasında buraxaraq Qarabağın azadlığı üçün canından keçən igidlərin qoxusu duyulurdu. Artıq xarıbülbül təkcə Qarabağın nadir çiçəyi deyildi, o həm də zəfər nəğməsinin ən zil melodiyasına çevrilib.

Zəfər nəğməsinin sədaları altında Şuşada Vaqifin poeziya günləri də yenidən keçirildi. Vaqifin azad ruhu bərpa olunan məqbərəsinin önündə salamlayırdı onun görüşünə gələnləri. Sözün, musiqinin çələnginə dönən Şuşada şeirin ahəngi muğamın zümzüməsinə qarışmışdı. Zamanın fövqündə duran, əzəli və əbədi musiqi statusu alan muğamımız bir daha əbədiləşdi Qarabağ torpağında. Azadlığa və müstəqilliyə qovuşduğumuz bu məsud anların, qürurlu günlərin sevincinə çevrildi muğam.

*Səcdəgahımız, qibləgahımız olan Qarabağda musiqinin, muğamın təsiri ilə artıq təbiətin bütün fəsillərində bülbüllər oxuyur, quşlar cəh-cəh vurur. Zəfərin nəğməsi çalınandan bəri bu torpaqlarda canlı və cansız nə varsa hər şey dil açıb danışır. Təbiətin ruhunu oxşayan bu şərqinin təsiri ana torpağı da dilə gətirdi. İllərdir, anasından ayrı düşərək həsrətin alovuyla qovrulan Vətən torpağı yeri-göyü lərzəyə gətirəcək bir hayqırışla “Ayrılamaz, ayrılmadı və heç bir zaman ayrılmayacaq könül candan” söylədi.*

**İlahə ALLAHVERDİYEVA**
***Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***

## Tələbələrlə dostluq görüşü



Naxçıvan şəhərində İqdır Universiteti və Naxçıvan Dövlət Universitetinin basketbol komandaları arasında yoldaşlıq görüşü keçirilib. Gənclər və İdman Nazirliyi ilə Naxçıvan Basketbol Federasiyası tərəfindən birgə təşkil olunan görüşün nəticələrinə əsasən qarşılaşma Naxçıvan Dövlət Universiteti tələbələrinin 57:46 hesablı üstünlüyü ilə yekunlaşıb.

Oyundan sonra Naxçıvan Basketbol Federasiyasının sədri Elbrus İsayev ənənəviləşməyə doğru gedən İqdır Universiteti-Naxçıvan Dövlət Universiteti yoldaşlıq görüşlərinin əhəmiyyətindən bəhs edib. Gözəl oyuna görə hər iki komandaya təşəkkür edən Elbrus İsayev qalib komandaya ayrılmış kuboku qonağa hörmət əlaməti olaraq qardaş ölkə təmsilçilərinə təqdim edib.

## İdmançılarımız Bakıdan 27 medalla geri dönüb




Bakı şəhərindəki “Sərhədçi” İdman Olimpiya Mərkəzində MMA, pankration və qrepplinq üzrə Azərbaycan birinciliyi və çempionatı, həmçinin respublika turniri (8-9 və 10-11 yaşlılar) keçirilib. Bakı və bölgələri təmsil edən komandalar, eləcə də 60-dan çox klubdan, ümumilikdə, 900-dən çox idmançı öz qüvvəsini sınayıb.

İki gün keçirilən yarışlarda muxtar respublikanı Naxçıvan Kikboksinq Federasiyasının sədri, idman ustası Xəyal Abdullayevin rəhbərliyi ilə “Turan” Döyüş Klubunun 24 idmançısı təmsil edib. Təmsilçilərimizdən 22-si mükafatçılar sırasına düşüb.

Ən yaxşı nəticə Əbülfəz Cəfərova məxsus olub. 11 yaşlı idmançımız respublika turnirində 44 kiloqram çəki dərəcəsi üzrə həm pankration, həm də qrepplinq növündə qızıl medal əldə edərək ikiqat sevinc yaşayıb. Dünya çempionu Sadiq Kərimov (2008-ci il, 47 kiloqram) MMA növündə birinciliyi əldən verməyib. Mətin Tapdıqov, İbrahim Əliyev, Qalib Qaybalıyev, Asim Kərimli qrepplinqdə, Onur Əliyev, Tunar Abdullayev və Sinan Nəsirli isə pankrationda birinci olublar. Adıçəkilən idmançılar və klubun digər üzvləri komanda aktivinə müxtəlif əyarlı medallar qazandırmağı bacarıblar. Nəticədə, Naxçıvan idmançıları 10-u qızıl, 9-u gümüş, 8-i bürünc olmaqla, ümumilikdə, 27 medal qazanıblar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Elan

“Naxçıvan Tikiş” Açıq Səhmdar Cəmiyyəti bildirir ki, 10 iyul 2022-ci ildə səhmdarların növbəti yığıncağı keçiriləcəkdir. Yığıncaq Naxçıvan şəhəri, İdris Məmmədov küçəsi 1, saat $14^{00}$-da olacaqdır. Yığıncağın gündəliyinə daxildir:

*1.Yeni heyətin sədrinin seçilməsi*
*2.Digər məsələlər.*

## İtmişdir

Səfərov Əli Yusif oğlunun adına olan avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Telli Məmmədova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 502